# Rəşid Behbudov adına dövlət mahnı teatrında rəqs



*Əhsən* Rəhmanlı,
*sənətşünas*

R.Behbudov bu teatrı yaradarkən burada rəqsdən istifadə ediləcəyini əvvəldən nəzərdə tutmuşdu. Odur ki, istər onun sağlığında, istərsə də ondan sonra burada mərhələlərlə ayrı-ayrı xoreoqraflar və rəqqaslar çalışıblar. Baletmesterlər sırasında Qəmər Almaszadə, Əlibaba Abdullayev, Yulana Əlikişiyeva, Rəfiqə Axundova, Maqsud Məmmədov, Qorxmaz Qurbanov, Fərhad Vəliyev, Zakir və Leyla Ağayevlərin adları xüsusi qeyd olunmalıdır. Q.Qurbanov bu teatr truppasının tərkibində xarici dövlərlərdə verilən konsertlərdə solo ifaları ilə seçilmişdir.

Dünya şöhrətli müğənninin rəqs sənətinə xüsus önəm verməsinin və yaratdığı teatrda bu sahənin özünə geniş şəkildə yer almasının obyektiv səbəbləri var idi. O, Azərbaycan Dövlət Estrada Orkestrinin solisti olaraq əvvəllər SSRİ məkanında, sonralar isə bir sıra xarici dövlətlərdə tanınırdı. Onun dünya şöhrəti qazanmasında dahi bəstəkar Ü.Hacıbəylinin "Arşın mal alan operettası" əsasında "Azərbaycanfilm"in çəkdiyi eyniadlı filmin geniş yayılıb populyarlıq qazanmasının xüsusi əhəmiyyəti olmuşdu. R.Behbudov istər çəkildiyi bu filmdə, çalışdığı M.F.Axundov adına Opera və Balet Teatrının tamaşalarında rəqs səhnələrinin, Sovet dövlətinin müxtəlif bölgələrinə, iri şəhərlərə qastrol səfərlərində müştərək konsertlərdə istər Azərbaycan, istərsə də başqa respublikaların rəqqas və rəqqasələrinin çıxışının şahidi olmuşdu. R.Behbudov SSRİ xalq artisti olaraq tez-tez xarici dövlətlərə qastrol səfərlərinə göndərilirdi. O, səfərlərdə şəraitə uyğun olaraq röyalın, estrada qrupunun müşayiətilə oxuyurdu. Yaşa dolub təcrübə qazandığı zamandan o, xarici dövlətlərin tamaşaçılarına nəyin lazım olduğunu, onları necə təəccübləndirməyin mümkün-lüyünü hiss etmiş və xalq çalğı alətlərinə, milli və ya dünyəvi rəqslərə onda güclü meyl yaranmışdı. Odur ki, Mahnı Teatrı ya-ratması ona öz arzu-istəklərinə, məqsədinə çatmasına geniş imkan yaratdı. O səfərlərə gedərkən xalq artistləri-kamança ifaçısı Habil Əliyev, tarzən Ramiz Quluyev, Baba Mahmudoğlu və bir neçə müğənnini, həmçinin rəqs ustalarını heyətin tərkibinə daxil edirdi.

Rəşid bəy uzun illərin səfərlərində rəqslərin tamaşaçı ovqatını coşdurması, zövq yaratması, rəqs hərəkələrinin insanların dərhal diqqətini cəlb etməsi və s. cəhətləri seyr etmişdi. O, görürdü ki, rəqs sənətinin çoxçalarlılığı, dinamikası, emosional təsiri, çevik hərəkətləri və digər spesifik xüsusiyyətləri bütün hallarda, hər konsertdə tamaşaçıların diqqətini cəlb edir, onları öz maraq dairəsinə salır, xüsusi maraq yaradır və çoxlarını ovsunlayır. Bütün bu qeyd olunanlar bu müdrik, yaradıcı insana, ecazkar sənətə malik müğənniyə xoreoqrafiya sənətini sevdirmiş və ona doğru istiqamətləndirmişdi.

Rəşid müəllim öz teatrına rəqs quruluşları vermək üçün SSRİ-də çox tanınan xoreoqrafiya mütəxəssislərini dəvət edirdi. Bu böyük sənətkarlar Moskvada, Leninqradda ali təhsil ocaqlarında və ən məşhur teatrlarda çalışanlar idi. R.Behbudov Mahnı Tetarında quruluş verilən tamaşalarda dünyəvi və Azərbaycan xalq rəqslərinin özünə yer almasına çalışırdı. Teatrda çalışan milli rəqs sənətçilərimiz dünyəvi rəqslərdə də çıxış edirdilər.

Bir neçə nümunə ilə fikrimizin izahına çalışaq. 1985-ci ildə Böyük Vətən Müharibəsi qələbəsinin 40 illiyi ilə bağlı bu mövzuda tamaşa üzərində iş aparılmışdı. Bununla bağlı dəvət olunmuş Vəkil Usmanovun quruluşu, Yuri Qusmanın rejissorluğu ilə vokal-xoreoqrafik kompozisiya hazırlanmışdı. Kompozisiyanın süjet xəttini Azərbaycan əsgərinin, 416-cı Taqanroq diviziyasının döyüşçüsünün Berlindən qələbə ilə Azərbaycana, Bakıya qayıtması təşkil edirdi. Bu obrazı rəqqas Xanlar Bəşirov yaratmışdı. Burada qalib əsgər çiynində avtomat silah bir-bir ölkələri keçərək doğma Bakıya qayıdır, onu öncə anası qarşılayır. Bu əsər Respublika Sarayında səhnə təcəssümünü tapmışdı. Həmin 15 dəqiqəlik rəqs-tamaşa xüsusi anlam daşımaqla bərabər, həm də çox maraqlı idi.

V.Usmanov Moskva Xoreo-qrafiya Məktəbinində dərs deyir, Böyük Teatrda çalışırdı. O, Azərbaycan Dövlət Mahnı Teatrında qızlar qrupu ilə kütləvi "Tovuz quşları" rəqs-kompozisiyasını da qurmuşdu. X.Bəşirovun söylədiklərindən mə-lum olur ki, R.Behbudov səfərə getdiyi ölkələrdən Bakıya gələrkən özüylə tovuz quşlarının lələklərini gətirirmiş. "Tovuz quşları" rəqsində lazım olan libasları hazırlayarkən həmin lələklərdən istifadə olunmuşdu. Vəkil Usmanov 1981-1985-ci illərdə dəfələrlə Mahnı Teatrına dəvət olunmuşdu. O, oğlanlı-qızlı kütləvi "Afrika rəqsi", "Yapon rəqsi" qurmuşdu. "Yapon rəqsi"ndə iki rəqqas Fərhad Qəndahov və Xanlar Bəşirov döyüşürdü. Burada karate döyüşləri, ağaclarla döyüş də var idi. Bütün döyüş hərəkətlərini layiqincə mənimsəyib yerinə yetirmək üçün xüsusi olaraq karate ustası, məşqçi Mirəli Seyidov dəvət olunmuşdu. Həmin zamanlar "Freski" rəqs-tamaşaya da quruluş verilmişdi. Belə rəqs quruluşları 1979-1989-cu illərdə öz həllini və səhnə həyatını tapmışdır.

R.Behbudov Moskvadakı Dövlət Teatr İnstitundan (QİTİS) filomenko üzrə yüksək mütəxəssis Qonsalis Vialetto Antonovnanı rəhbərlik etdiyi Mahnı Teatrına dəvət eləmişdi. 1981-ci il idi. Qonsalis burada "Teorodor" rəqs tamaşanı üç qız və bir oğlan üçün qurmuşdu. Qızların biri Bakıda yaşayan ispan qızı idi. Vialetta Antonovna 1984-cü ildə bir daha Bakıya dəvətli idi. O, bu dəfə filamenko qurmuşdu. Rəqsi Fərhad Qəndahov və ispan qızı Xuana Fernandes ifa edirdi. Qız laqqutilərdə (kastanet) ifa edərək oynayırdı.

Ə.Abdullayev 1975-ci ildə R.Behbudovun teatrında çoxdankı arzusunu həyata keçirir. O, "Köhnə Bakı" kompozisiyasını hazırlayır. Bu teatrlaşdırılmış tamaşanın ilk baxışı Respublika Sarayında olur .

Sonradan çox məşhurluq qazanan Alim Zeynalov, Qəhrəman Nəsirov bu teatrda da xüsusi məharət göstərmişdilər. Onlardan sonra Mahnı Teatrında Əlikram Aslanov, Xosrov və Etibar Zeynalov da ustalıq nümayiş etdiriblər. Belə səviyyəli rəqqaslar Ə.Abdullayevin qurduğu proqramda əla ifa göstərə bilirdilər.

Ə.Abdullayev "Köhnə Bakı" adlı kompozisiyaya hətta teatrın müğənniləri Mübariz Tağıyev, Elxan Əhədzadə və Xədicə Abbasovanı da cəlb etmişdi, onlar da rəqs edirdilər. Bu kompozisiyanın teatrallaşdırılmasında Rusiyanın xalq artisti, rejissor Ənvər Behbudovun mühüm rolu olmuşdu. O, bu rəqs kompozisiyasına tamaşa quruluşu vermişdi. Əsər boyu köhnə Bakı daxilində musiqinin sədaları ilə biri-birindən maraqlı hadisələr baş verirdi. Güləşmə səhnəsini yaratmaq üçün Ə.Abdullayev "Dinamo" İdman Cəmiyyətindən güləş üzrə müəllim dəvət etmişdi. Həmin idman ustası rəqqas Etibar və Xosrova güləşmək öyrətmişdi. Xosrovla Etibar səhnədə güləşir, Xosrov qalib gəlirdi. Məzəli səhnələr xüsusi maraq yaradırdı. Elxan Əhədzadə Etibarın boynuna minib onun üzünü qırxırdı. Etibar Zitta Babazadə ilə duet-rəqsdə çıxış edirdi. Həmin kompozisiyada ud, tar, saz sololarını Kamil Vəzirov ifa edirdi. Bu tamaşada bazarda alver, qızların mədrəsədə təhsil alması, onların məcburi ərə verilməsi və bəzi digər məqamlar əks etdirilirdi.

Bu teatrda kütləvi, duet və solo rəqslərdə hər bir rəqqas və rəqqasənin öz bacarığını göstərməyə imkan yaradılmışdı. Ustad Ə.Abdullayevin qurduğu "Qaytağı" rəqsində hər bir ifaçı tamaşa zalını lərzəyə gətirirdi.

Etibar Zeynalov və Zitta Babazadənin ifa etdiyi "Nazeləmə"ni tamaşaçılar alqışlayır və yenidən səhnəyə qaytarırdılar.

Dövlət Mahnı Teatrında rəqqaslardan Vaqif Nuruyev, Ələsgər Əliyev də çalışıb və yaxşı sənət izi qoyublar.

Nisəxanım Rəhimova 1970-1972-ci illərdə Mahnı Teatrının solist-rəqqasəsi olmuşdur. Həmin dövrdə burada iki rəqqas və on bir rəqqasə calışmışdır. Teatrda quruluşçu baletmeysterlər Rəfiqə Axundova və Maqsud Məmmədov çütlüyü, məşqçi isə Maritsa Alekseyevna Syomina idi.



Nisəxanım R.Behbudovun oxuduğu "Yabançı olduq şimdi" türk mahnısında, "Cücələrim" və "Ləzginka" rəqslərində, Ü.Hacıbəylinin "Arşın mal alan" operettası əsasında hazırlanan kompozisiyada solist olaraq səhnələri fəth etmişdir. "Arşın mal alan"da əvvəl R.Behbudov "Əsgərin ariyası" nı oxuyur, sonra isə dahi bəstəkarın musiqisi üzərindəki oranjeman əsasında (oranjeman R.Babayevin idi) dünya xalqlarının rəqsləri ifa edilirdi. Bütün rəqslərin quruluşu xalq artistləri Rəfiqə Axundova və Maqsud Məmmədovun idi. Mahnı Teatrı bu repertuarla xarici dövlətlərdə və SSRİ-nin bütün böyük şəhərlərində uğurlar qazanmış və maraqla qarşılanmışdı.

Dövlət Rəqs Ansamblının rəqqası Vaqif Nuruyev 1975-1977-ci illərdə bu Mahnı Teatrında çalışıb. Məşhur rəqqas, əməkdar artist Xanlar Bəşirov 1979-1986-cı illərdə bu teatrda çalışaraq xarici dövlətlərdə maraqlı və məharətli ifası ilə alqışlarla qarşılanmışdır. Zitta Babazadə və Xanlar Bəşirovun duet rəqsləri də reperturda özünə mühüm yer tutur və həmişə tamaşaçı marağına səbəb olurdu.

Xalq artisti Əminə Dilbazi 1979-cu ildə bu teatrda "Yallı", "Qıtqılıda" və "Nəlbəkilərlə rəqs"ə quruluş verib. O, sonuncu iki rəqsdə solo hissələri Zitta Babazaddə üçün qurmuşdu.

Əməkdar artist Namus Zöhrabov 1991-1995-ci illərdə bu teatrın rəqs qrupuna rəhbərlik edib. Amerikada verdiyi müsahibədən: "Doğrudan da musiqi və rəqs mənsub olduğu ölkəni, xalqı təmsil edə bilir. Ancaq rəqs daha irəlidədir. Çünki əcnəbilər musiqini dinlərkən anlamaqda çətinlik çəksələr də, hörmət xatirinə də məmnun qaldıqlarını bildirə bilərlər. Rəqs isə izahı olmayan bir sənətdir və xalqın mədəni dəyərlərini hərəkətlər vasitəsilə ifadə edə bilir".

Zakir Ağayev və Leyla Ağayeva 1994-2014-cü illərdə R.Behbudov adına Dövlət Mahnı Teatrında baletmeyster vəzifəsində çalışıblar. Onlar işi R.Behbudovun yaratdığı üslub üzərində qururdular. Zakir və Leyla rəqsləri müğənnilərin oxuduğu hər bir mahnının sözləri, məzmunu, mahiyyəti və süjet xətti üzərində hazırlayırdılar. Yəni buradakı repertuarın üzərində qurulan hər bir rəqs xüsusi məna kəsb edirdi. Bu özü də rəqs sənəti üçün yeni mahiyyət, yeni səpgi və çoxçalarlıq yaradırdı. Bundan əlavə Zakir və Leyla Ağayevlər Mahnı Teatrında Ə.Abdullayevin quruluşunda "Vağzalı-Mirzəyi" rəqsini də hazırlamış və repertuara daxil etmişdilər. Həmin dövrdə bu teatrda Aytən Alxasova, Günəş Talıbova, Milena Alimova, Aida Yəhyayeva, İradə Rəmiyar, Elmira Əbdürrəhmanova kimi rəqqasələr çalışmışdır.

Mahnı Teatrının solisti olmuş əməkdar artist Xanlar Bəşirovun fikirlərindən: "Burada çalışmaq həm maraqlı, həm də çətin idi. Xarici ölkələrə səfərlər çox olurdu. Repertuardakı rəqslərdə ifaçıların birlikdə və ayrıca solo şəklində çıxışları var idi. Rəqslərimiz bütün ölkələrdə maraqla qarşılanırdı. Oralarda rəqslərimizə xüsusi maraq var idi. Xatırlayıram ki, 1979-cu ilin oktyabr-noyabr aylarına düşən 30 günlük səfərimiz oldu və hər konsertimiz uğurla tamamlandı. İsveçrə (1980), Almaniya (1982 və 1985), Pakistan, Nepal, Banqladeş, Belçika, Hindistan (1983), Əlcəzair və Tunisdə (1984) maraqlı proqramlarla konsertlərimiz olub. Belə uğurlu konsertlərdə müğənnilər-Baba Mahmudoğlu, Mübariz Tağıyev, Kəmalə Rəhimli və Rəşidə Rəşid, kamança ifaçısı Habil Əliyev və tarzən Ramiz Quluyev də bizimlə olublar".

Teatrın rəqs qrupunda çalışan istedadlı solist rəqqaslardan biri də Hafiz Əmirov idi. O, burada "Çobanlar" rəqsinə quruluş da vermişdi. Həmin dövrdə Hafizlə birgə sololarda çıxış edən rəqqaslardan biri Namiq Gülməmmədov olub. O, burada 1984-1988-ci illərdə çalışaraq bir sıra solo oyunu ilə seçilib, sevilib. Mamiq "Nazələmə"də Zitta Babazadə ilə tərəf-müqabil olur, "Çobanlar" rəqsində Hafizlə soloya çaxıb böyük maraq yaradaraq fasiləsiz alqışlar qazanırdı. H.Əmirov teatr üçün "Meksika" rəqsi də qurmuşdu. Namiq bu rəqsdə də Hafizlə solo çıxırdı. Həmin rəqsdə səkkiz qız və iki oğlanın oyunu o qədər maraqlı olurdu ki...

Moskvadan Mahnı Teatrına dəvət olunan tanınmış baletmeyster Manyoxin dünyaca məşhur İngilis-Amerika rəqsi "Step" qurmuşdu. Hafiz burada çox gözəl solo ifa yaradırdı.

Dəvətli Qonsalis R.Behbudov teatrında hind rəqsi "Günəş Allahı" qurmuşdu. Bu kütləvi rəqsdə Zitta Babazadə və Namiq Gülməmmədov solist idilər.

Rəşid Behbudov dünyasını dəyişəndən sonra Azərbaycan Dövlət Mahnı Teatrına onun adı verilmişdir.

Aytən xanım 1999-2016-cı illərdə R.Behbudov adına Dövlət Mahnı Teatrında çalışmışdır. O zaman repertuardakı "Vağzalı-Mirzəyi" (Ə.Abdullayevin quruluşunda) altı nəfər qızla, kütləvi rəqs "Yallı"da (Ə.Dilbazinin quruluşunda, oğlanlı-qızlı), "Ləzginka" (qızlar qrupu ilə) rəqslərində və T.Quluyevin "Zibeydə" mahnısının instrumental variantı üzərində doqquz qız üçün qurulmuş rəqsdə solo ifası ilə tanınmışdır. Aytən xanımın özünün üç qız üçün qurduğu "Gözəllər" rəqsində də əla solo göstərirdi. A.Alxasova-Bünyatova Mahnı Teatrının xətti ilə Türkiyə və Rusiyada (dəfələrlə), Ukraynada, Tütkmənistanda, Almaniyada və Fransada səfərlərdə olmuşdur.

Azərbaycan Dövlət Mahnı Teatrında rəqs əsas vasitələrdən biri olaraq, vətənimizdə, keçmiş SSRİ məkanında, xarici dövlətlərdə xüsusi əhəmiyyət daşımız və daim güclü marağa səbəb olmuşdur. Rəqs sənətçilərimiz istər ustad R.Behbudovun, istərsə də başqa müğənnilərin oxuduğu mahnıları da müşayiət edərək, əcnəbi tamaşaçılara hər bir musiqi əsərinin məzmununu, ana xəttini anlatmış və mahiyyətini izah edə bilmişdir. Çox əfsus Mahnı Teatrında yaradılmış ənənə, mühüm qaydalar, tələbat, yüksək səviyyə R.Behbudovdan sonra, xüsusilə, son illərdə qorunub saxlana bilməmişdir.